AZƏRBAYCAN ORDUSU

# “Bizim savaşımız müqəddəs savaşdır”

*Cari ilin sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alan Azərbaycan Ordusu yüksək döyüş qabiliyyəti nümayiş etdirərək 4 şəhər 4 qəsəbə və 200-dən artıq kəndimizi, o cümlədən strateji yüksəklikləri azad edib və hazırda cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir. Azərbaycan Ordusunun son döyüşlərdə nümayiş etdirdiyi döyüş ruhu və qabiliyyəti orduda keçirilən islahatların yüksək göstəricisidir. Bu gün Ali Baş Komandanın Azərbaycan Ordusunun qarşısına qoyduğu əsas vəzifələr - işğal olunan torpaqlarımızın azad edilməsi igid oğullarımız tərəfindən salnamə yazılaraq həyata keçirilir. Son əks-hücum əməliyyatı da sübut edir ki, Azərbaycan Ordusu qarşıya qoyulan istənilən məsələnin öhdəsindən gəlmək iqtidarındadır. Bu gün Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edir və sona qədər azad edəcək. İgid Azərbaycan oğulları ilə döyüş meydanında görüşüb təəssüratlarını öyrəndik.*

**"Azərbaycan Ordusu"**





**Zabit Sənan Novruzlu:**

- Bu günlər hər birimizin çoxdankı arzusudu, bu günlər xalqımızın uzun müddətdi həsrətində olduğu günlərdi. Azərbaycan əsgəri bu gün düşmənə qarşı vuruşaraq, ərazilərimizi işğaldan azad edərək tarix yazır. Uzun müddətdi öz həllini tapmayan Dağlıq Qarabağ münaqişəsini bu gün Azərbaycan ordusu öz Ali Baş Komandanının rəhbərliyi altında həll edir. Hər birimiz içdiyimiz Hərbi anda sadiqik. Ali Baş Komandanımızın qətiyyəti ilə qısa müddətdə Böyük Qələbə gününün sevincini xalqımıza bəxş edəcəyik. Bu peşəni müqəddəs edən onun ali vəzifəsidir. Xalqın güvənc yeri, dövlətin varlığının qarantı olan ordunun şəxsi heyətinin tərkibində bu tarixi anları yaşamaq qürurvericidir. Bu döyüşlərdə vəzifəsindən, rütbəsindən asılı olmayaraq hər kəs Vətənin ərazi bütövlüyünü təmin etmək üçün səfərbər edilib, düşmənə qarşı müxtəlif cəbhələrdə vuruşur. Vətəni qorumaq missiyası bu gün bizlərə həvalə edilib və bu missiyanı layiqincə yerinə yetirmək üçün düşmənə qarşı ürəklə vuruşuruq. Hər birimiz ömrümüz boyu bu döyüşlərdə iştirak etməkdən qürur duyacağıq. Neçə ildir ki, bu əraziləri işğalda saxlayan düşməni qısa müddət ərzində tarixi torpaqlarımızdan qovuruq. Bu gün müzəffər Azərbaycan Ordusu uzun illərdir düşmənə layiq olduğu cavabı verir. Yeni ərazilərimizə qədəm qoyduqca daha da ruhlanırıq. Bu uğurlardan irəli gələn adrenalin hissi bizi yeni uğurlara səsləyir. Qazandığımız uğurlar Şuşanın, Laçının, Kəlbəcərin, Xankəndinin,... azad olunması ilə tamamlanacaq. Xalqımız əmin olsun ki, Azərbaycan əsgəri hər gün işğalın sonunu bir qədər də yaxınlaşdırır. Biz də öz növbəmizdə xalqa, millətə, Vətənə şərəflə ləyaqətlə xidmət edirik. Bölməmizin əsgərləri bu savaşa istər döyüş hazırlığı baxımından, istərsə də mənəvi-psixoloji cəhətdən hazırdır. Fəxr edirəm onlarla. Onların hər biri bu gün mənimlə çiyin-çiyinə düşmənə qarşı vuruşur, Azərbaycan xalqının haqq mübarizəsinə töhfə veririk. Bu mübarizədən bizi heç kim ayıra bilməz.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ramil Cəfərov:**

- Azərbaycan Ordusu bu gün beynəlxalq hüquqla tanınan qanuni torpaqlarını işğaldan azad etmək üçün savaşır. Bu döyüşlərin günümüzə olan nəticələrindən danışsaq qazanılan uğurların əsasında böyük vətənpərvərlik ruhunun durduğunu görərik. Vətən üçün yaşamaq, bu yolda fədakarlıqlara hazır olmaq gərək. Mən də digər silahdaşlarım kimi qazanılan qələbədə, əldə olunan nəticədə pay sahibi olduğum üçün sevinirəm. Komandirlərimiz tərəfindən qarşımıza qoyulan tapşırıqlar tərəfimizdən uğurla icra olunur. Vaxtında təlimlərdə tökdüyümüz tər bu gün zəfərlə taclanır. Düşmən təxribatına tərəfimizdən adekvat cavablar verilir. Ərazilərimiz işğaldan təmizlənir. Döyüşlər zamanı düşməndən azad etdiyimiz strateji yüksəkliklər hesabına düşmən üzərindəki üstünlüyümüz daha da artır. Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və digər tarixi torpaqlarımız Vətən ərazisinə qatılır və qalan ərazilərimizi işğaldan azad etmək üçün gecə-gündüz düşmənə qarşı döyüşürük. Bir zamanlar hərbi və mülki obyektlərimizə təhdid yaradan mövqelərdə bu gün bayrağımız dalğalanır, orada bizim əsgərlər dayanır. Müəyyən möhkəmləndirmə işləri aparıldıqdan sonra Azərbaycan əsgəri öz tarixi ərazilərində ayıqsayıq xidmət təşkil edir. Bu döyüşlərdə təkcə düşmən deyil, həmçinin dünya ölkələri ordumuzun həm döyüşaparma qabiliyyətinə, həm də xalqımızın mil-li-mənəvi ruhuna şahidlik etdi. Qələbəmizi sürətləndirən amillər kifayət qədərdir. Lakin ən əsas amil Ali Baş Komandan-xalq-ordu birliyidir. Hər birimiz ürəyimizdə alışan qisas hissi ilə vuruşuruq. Ata-baba yurdumuz düşməndən tam azad edilənə qədər vuruşacağıq. Bu gün şəhidlərimizin ruhu şaddır. Murov Qartalı Raquf Orucovun uğrunda döyüşdüyü Murovdağ zirvəsi, Mübariz İbrahimovun şəhadətə yüksəldiyi post və daha minlərlə oğullarımızın canını qurban verdiyi tarixi ərazilərimiz ordumuz tərəfindən işğaldan azad olunur. Bizdən sonrakı gənc nəsil bugünkü tariximizlə fəxr edəcək. Qəhrəman oğullarımızın həyat və ömür yolu çoxlarına nümunə olacaq. Yeni qəhrəmanlar yetişəcək, o oğulların olduğu müddətcə Vətənimiz toxunulmaz, bölünməz olacaq.





**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Məmmədəli Vəliyev:**

- Hər kəs bilir ki, ordu nə qədər güclü olur olsun, dövlətinin, xalqının dəstəyi olmasa qalib gəlməsi mümkün deyil. Ordu o zaman güclü olur ki, onun ətrafı Ali Baş Komandanının qətiyyəti, xalqının qayğısı və diqqəti ilə əhatələnib. Gedən həlledici döyüşlərdə Ali Baş Komandanın ətrafında birləşən ordumuzun gücünü hər kəs görür. Ulu Öndər Heydər Əliyevin başlatdığı müasir ordu quruculuğu prosesinin bu gün Ali Baş Komandanımız tərəfindən layiqli davam etdirilməsinin yüksək təzahürünü görürük. Düşmən layiq olduğu cavabı artıqlamasıyla alır. Dağlıq Qarabağ münaqişəsinin birdəfəlik həllinə addım-addım yaxınlaşırıq. Düşmənin illərdir əlində saxladığı mövqeləri ordumuz qısa müddətdə vurub keçdi. İrəlilədikcə hər birimizin döyüş ruhu artır, bizə motivasiya verir. Bu gün Suqovuşanda, Füzuli şəhərində, Hadrutda, Cəbrayıl şəhərində, Zəngilan şəhərində və digər işğaldan azad olmuş ərazilərimizdə dalğalanan ay-ulduzlu bayrağımızın Şuşada, Laçında, Kəlbəcərdə,... dalğalanacağı gün artıq uzaqda deyil. Biz o bayraq dalğalansın deyə, əlimiz tətikdə ərazilərimizi düşməndən təmizləyir, Vətənimizi qoruyuruq. Vətən sevgimiz, döyüş ruhumuz yüksək olduğu müddətdə qarşımızda heç bir qüvvə dura bilməz. Bu döyüşlər ordumuzun gücünü, onun döyüş ruhunu bütün dünyaya göstərdi. Ordumuzun arsenalında olan müasir silahlardan peşəkarcasına istifadə nəticəsində qısa müddətdə düşmənə sarsıdıcı zərbələr endirildi. Aldığı zərbələrdən panikaya düşən düşmən qüvvələri ərazilərimizi tərk edirdilər, həm də müqavimət göstərmədən. Arxasına baxmadan, silahını ataraq, döyüş yoldaşını yarı yolda qoyaraq uzaqlaşırdılar. Ali Baş Komandanımızın da dediyi kimi, iti qovan kimi qovuruq onları. Xalqımız da əmin olsun ki, torpaqlarımız yağı düşməndən tam təmizlənənə qədər onları qovmağa davam edəcəyik. Yaşasın Azərbaycan!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Amil Vəliyev:**

- Əraziləri düşməndən təmizlədikdən sonra onların mövqeyini gözdən keçirdik. Gördüyümüz şəraitsizlik, silah-sursatın köhnəliyi onların döyüş ruhu ilə düz mütənasib idi. Belə şəraitdə xidmət edən əsgərin nəinki döyüş ruhu, heç sağlamlığı da yerində ola bilməz. Erməni hər zaman vassal olduğuna görə, düşmənin Vətən anlayışı heç zaman olmayıb. Tarixə nəzər salsaq görərik ki, onların hazırkı ərazisi də bizim tarixi torpaqlarımızdır. Vətən anlayışından payını almayan erməni əsgəri özünə aid olmayan ərazidə vuruşmaqdan boyun qaçırır. Düşmən çıxış yolunu qaçmaqda görür. Nə uğrunda döyüşdüyünü bilməyən erməni əsgərinə qarşı vuruşan



Azərbaycan əsgəri illərdir düşmən işğalında olan tarixi ərazilərinə Böyük Qayıdış edir. Bizlər isə düşməndən fərqli olaraq, Vətən sevgisindən güc alaraq savaşırıq. Vətənimizin bütövlüyü uğrunda öldürməkdən, eyni zamanda bu yolda ölməkdən heç qorxmuruq. Çünki Vətən eşqi bizə ata-babalarımızdan mirasdır. Biz bu gün döyüşürük ki, xalqımız gələcəkdə firavan yaşasın, döyüşürük ki, Dağlıq Qarabağ problemimiz gələcək nəslə qalmasın. Tərəfimizdən gəbərdilənlər sırasında xalqımıza qarşı soyqırımlarda iştirak etmiş, körpə, qadın yaşlıları vəhşiliklə öldürənlər də var. Qisas günlərinin xoşbəxtliyini yaşayırıq. Tarixən xalqımızın humanistliyindən faydalanan erməni dığalarını ərazimizdən qovuruq. Yaşından, rütbəsindən, vəzifəsindən, gəldiyi bölgədən asılı olmayaraq hər birimiz üçrəngli bayrağımız altında düşməndən qisas alırıq. Bölməmizdə elə igidlər var ki, gənc olmasına baxmayaraq, düşmənə göz açmağa imkan vermir. Tarixən igid oğulları hesabına döyüşçü ənənələrini yaşadan yurdumuzun bugünkü sərkərdələri, öz döyüş yolu ilə gələcək nəslə nümunə olacaq. Qarabağımızın artıq qapıları açılıb, son damla qanımızadək vuruşub tarixi ərazilərimizi geri qaytaracağıq. Eşq olsun, Azərbaycan Ordusuna!

(Ardı 5-ci səhifədə)

# “Bizim savaşımız müqəddəs savaşdır”



(Əvvəli 4-cü səhifədə)

**Gizir Elsevər Pirsatov:**

- Döyüşlərdə qazandığımız uğurlar təkcə hərbi qələbə deyil, həm də xalqımızın mənəvi dəstəyinin məntiqi nəticəsinin qələbəsidir. Sentyabrın 27-də törətdiyi təxribata cavab olaraq düşmən mövqelərinə sarsıdıcı zərbələr endirildi, bu gün də bölmələrimiz düşmən qüvvələrinə göz açmağa imkan vermir. Necə deyərlər, işğalçının hikkəsi ona baha başa gəldi. Bu



gün də bütün cəbhə boyu ərazilərdə düşmənin fəaliyyəti tərəfimizdən müşahidə edilir, əl atmaq istədiyi məkrli niyyətinin qarşısı tərəfimizdən layiqincə alınır. Ölkə rəhbərliyi bu münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, humanist dəyərlərə sadiq qaldığını beynəlxalq arenalarda, tribunalarda hər zaman deyib. Lakin Ali Baş Komandanımız öz qətiyyətli çıxışı ilə dünyaya mesaj verdi ki, Azərbaycan xalqının səbri tükənməz deyil. Dünyanın hegemon dövlətlərinin, beynəlxalq təşkilatların bərqərar etmədiyi ədaləti bu gün Azərbaycan əsgəri edir. Döyüş hazırlığımız ilə, xalqın dəstəyindən aldığımız güc ilə bu gün torpaqlarımızı mənfur qonşularımızdan təmizləyirik. Bölmələrimizin döyüş ruhu qarşısında düşmən aciz qalıb. Silahını, döyüş texnikasını, silahdaşlarını atıb qaçan aciz döyüşçülər erməni ordusunun əsl simasının göstəricisidir. Döyüş meydanında aciz qalan düşmən, mülki insanları hədəf alır. Lakin onlar bilmirlər ki, Azərbaycan xalqını belə şeylər qorxuda bilməz. Əksinə xain hücumlar Azərbaycan əsgərini düşmənə qarşı daha böyük nifrətlə vuruşmağa sövq edir. Xalqımız hər zaman başda Ali Baş Komandan olmaqla ordumuza inanıb, güvənib. Bu döyüşlərdə qazandığımız uğurlar bizim xalqımızın inamına ehtiramıdır, şəhidlərimizin alınmış qisasıdır.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Alqayıt Əzizov:**

- Vətəni qorumaq hər bir vətəndaşın şərəf borcudur. Şərəf borcunu sözsüz yerinə yetirən vətəndaş ən yüksək qiymətə layiqdir. Bu gün biz ən müqəddəs vəzifəni yerinə yetiririk. İllərdir Qarabağın bizə, bizim isə onun başı qarlı, dumanlı dağlarına, yamyaşıl meşələrinə yönələn həsrətli baxışlarına son qoyuruq. Nisgillə yad etdiyimiz Şuşa qalasının, İsa bulağının, Cıdır düzünün işğalına son qoyacağıq. Ordumuzun düşmən üzərində zəfər yürüşünə çıxıb üçrəngli bayrağımızı Qarabağ torpağına sancacağı gün bu gündür.

Bu gün sadəcə dünya azərbaycanlılarının ən müqəddəs arzusu - əzəli və əbədi torpaqlarımızın işğaldan azad olunması ordumuzun igid, mərd, qorxubilməz oğulları tərəfindən reallaşır. Bu arzunu Aprel döyüşlərində, Günnüt zəfərində düşmənə qan udduran ordumuzun qüdrəti gerçəkləşdirir. Bu gün Vətən müharibəsi döyüşlərində düşməni ağır məğlubiyyətə uğradan ordumuz göstərdi ki, xalqımıza



növbəti qələbə sevincini yaşatmağın, Böyük Qələbənin bir addımlığındayıq.

Rəşadətli ordumuz tarixi torpaqlarımızı düşmən əsarətindən azad etdikcə millətimin itən gülüşü dodaqlarına, sevinci parlayan gözlərinə qayıdır. Vətən həsrəti ilə alışıb-yanan soydaşlarımızı doğma ocaqlarına qovuşdurmaq bizim ən müqəddəs vəzifəmizdir. Ali Baş Komandanımızın rəhbərliyi ilə son qarış torpağımızı da düşməndən azad edənəcən döyüşləri davam etdirəcəyik.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Tural Məmmədli:**

- Vətən sözü insanlarda dərin və əziz hisslər oyadır. Vətənə məhəbbət öz xalqına məhəbbətdir. Vətən uğrunda hər cür fədakarlığa hazır olmaq vətənsevərlərin, Vətəni qoruyanların yaşam amalıdır. Bizim həyatımızın, bütün sevgilərimizin əvvəli də, axırı da Vətənlə bağlıdır.

Bu gün əzəli və əbədi torpaqlarımızın azad olunması şanlı ordumuzun igid, mərd, qorxubilməz oğulları sayəsində reallaşır. Xalqımızın mənəvi dəstəyindən güc alan rəşadətli ordumuzun qəhrəman döyüşçüləri düşməni tarixi torpaqlarımızdan qovub çıxarırlar. Bu döyüşlərdə düşməni ağır məğlubiyyətə uğradan qalib ordumuz Cəbrayılı, Füzulini, Suqovuşanı, Hadrutu və digər ərazilərimizi işğaldan azad edərək göstərdi ki, biz heç zaman işğalla barışmayacağıq. Otuz il davam edən danışıqlar müddətində də xalqımız bir an belə ümidsizliyə qapılmadı. İnandı. İnandı ki, tarixi torpaqlarımız, doğma yurd-yuvalarımız düşmən əsarətində qalmayacaq. Biz öz torpaqlarımıza qayıdacağıq. O inamı Ali Baş Komandanımızın dediyi "Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın" kəlamı idi bizi ölməyə qoymayan, yaşadan.

Şanlı hərb tariximizdə məxsusi yeri olacaq bu döyüşlərdə ordumuz düşmənin saysız-hesabsız hərbi texnikasını, canlı qüvvəsini məhv edib və etməkdədir. Ordumuzun əldə etdiyi uğurlar biz döyüşçülərdə də çox böyük ruh yüksəkliyi yaradır. Düşməni ağır məğlubiyyətə uğratdığımız bu döyüşlərin ərazi bütövlüyümüzün bərpası ilə başa çatacağına əminəm.

Əks-hücum əməliyyatı ordumuzun qələbəsi ilə başa çatacaq. Rəşadətli ordumuz buna tam olaraq qadirdir.

Bu savaşda biz haqq tərəfdarıyıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Əsgər Nihad Abbaslı:**

- Sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatı bir daha sübut etdi ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyi yeganə güc Azərbaycan Ordusudur. Hazırda ordumuzun güclü olması, ən müasir silahlarla təchiz edilməsi, şəxsi heyətimizin qarşıya qoyulan tapşırıqları qüsursuz yerinə yetirməsi döyüş meydanında özünü təsdiqləyir. Bu reallıq bizdə qürur və fəxarət yaratdığı kimi, qarşı tərəfdə də qorxu və vahimə yaradır. Ancaq düşmənin məsələyə münasibəti reallığı dəyişmir. Azərbaycan ordusu bir-birinin ardınca elə qələbələrə imza atır ki, bu ciddi uğurlar problemin həllində yeni mərhələ yaradacaq keyfiyyət dəyişiklikləri formalaşdırır.

Döyüş meydanında əldə etdiyimiz uğurları sözlə ifadə etmək çətindir. Həmin anı yaşamaq və görmək lazımdır. İndiyə qədər sülh yolu ilə həll edilə bilməyən Dağlıq Qarabağ mü-



naqişəsi bu gün müharibə yolu ilə həllini tapır. Azərbaycan xalqının Qarabağa üz tutması, vətəndaşlarımızın könüllü olaraq ordu sıralarına yazılmaqla bağlı müraciətlər etməsi və hamının bir nəfər kimi Ali Baş Komandanın siyasətini dəstəkləməsi xalq-dövlət-ordu birliyinin ən yaxşı nümunəsidir.

Azərbaycan Ordusundakı döyüş əhval-ruhiyyəsi onu göstərir ki, biz işğal olunan bütün torpaqlarımızı tezliklə azad edəcəyik. Ordumuzun hər qələbəsi, hər addımı bir tarixdir. Biz döyüş meydanında düşmənin Azərbaycan Ordusunun qarşısından qaçdığının şahidi olduq. Bu anları yaşamaq qürurvericidir. Düşmən bilsin ki, bizim torpaqlarda əbədi qalmayacaq. Torpaqlarımızda onların son nəfəsləridi. Biz onlara daha ağır zərbələr endirəcək və torpaqlarımızı işğaldan azad etməklə xalqımıza sevinc bəxş edəcəyik. Əgər erməni əsgəri ölmək istəmirsə, rədd olsun Vətənimizdən. Rədd olsun düşmən, bu torpaqların sakinləri gəlir!

**Əsgər Emin Əzimzadə:**

- Müharibə ədalətin pozulduğu anda baş verir. Bu gün Cənubi Qafqaz regionunda



təhlükəsizliyi təhdid edən və sabitliyi pozan dövlət Ermənistan, ədaləti bərpa etmək istəyən, öz haqq işi uğrunda mübarizə aparan tərəf isə Azərbaycandır. Təxminən 30 ilə yaxındır, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz siyasi, hüquqi həllini tapmır və buna mane olunur. Ancaq Ali Baş Komandanımızın rəhbərliyi ilə bu gün haqq-ədalət öz yerini tapmaqdadır.

Qarabağ bizim üçün qürur yeridir. Çoxdandı o dağlara, əzəli yurdlarımıza - Qarabağımıza gedib-gələ bilmirik. Vüqarımız, qürurumuz, baş tacımız, qeyrət qalamız olan o uca dağlar bizi səbirsizliklə gözləyirdi. Biz bu torpaqları geri qaytara bilməsəydik, babalarımızın ruhu bizi bağışlamazdı. Ona görə də son damla qanımıza qədər döyüşür və torpaqlarımızı azad edirik. Xalqımızın bizə inamı, güvəni sonsuzdur və borcumuz bu inamı və güvəni doğrultmaqdır. Qarabağı azad etmək biz hərbi qulluqçuların üzərinə düşür. İnanırıq ki, torpaqlarımızın müdafiəsi naminə qələbəyə qədər döyüşəcək, Ağdam, Xankəndi, Şuşa, Laçın və işğalda olan digər torpaqlarımızı da erməni işğalçılarından azad edəcəyik!

Düşmən bizim sərhədlərimizi parçalasa da, ürəyimizi, beynimizi, əyilməz ruhumuzu, xalqımızın şanlı keçmişini heç bir vəchlə bölə bilmədi. Ona görə əminik ki, nə qədər xalqın güvənc yeri olan Azərbaycan Ordusu var, deməli, Azərbaycan torpaqları da işğaldan azad olunacaq, dövlətimiz əbədi yaşayacaq və daima inkişaf edəcəkdir!

Görüşünə gəlirik, Qarabağım... Gəlirik, mütləq gəlirik. Güclü dövlətimizlə, rəşadətli ordumuzla gəlirik...